Dünyamalıyev F.H.*

DOI: 10.25108/2304-1730-1749.iolr.2021.63.38-45
UOT34.08

# Azərbaycanda gənclər siyasəti və gənclərlə işin təşkili

**Xülasə:** Hər bir dövlətdə olduğu kimi, gənclər Azərbaycanda da aparıcı qüvvədir. Bundan əlavə gənclər daim axtarışda olan və yenilikçi bir kütlədir. Azərbaycan yenidən müstəqilliyini bərpa etdikdən sonra ümumilli Lider Heydər Əliyev hakimiyyətə gəldikdə ölkəmizin gənclər siyasəti istiqamətində bir sıra əsaslı islahatlar aparmışdır.

Son zamanlar Azərbaycanda gənclər siyasəti daha da inkişaf etmiş və dövlət siyasətinin ən önəmli, əsas istiqamətinə çevrilmişdir. Ümumilli lider Heydər Əliyevin uğurlu davamçısı və siyasi məktəbinin yetirməsi olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bütün bunları nəzərə alaraq Azərbaycanın qüdrətli dövlətə çevrilməsi naminə gənclərə olan inamı sonsuzdur, ölkəmizdə gənclərə yüksək səviyyədə şərait yaradılması və onların inkişafı naminə bir çox dövlət proqramları qəbul edilir.

Bütün bu tədbirlər gənclərin inkişafını təmin edir. Azərbaycanda gənclər siyasətinin ən önəmli bir hissəsi də gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunmasıdır.

**Açar sözlər:** gənclər; gənclər siyasəti; Azərbaycan; dövlət proqramı; vətənpərvərlik; gənclərin inkişafı; könüllülük; siyasət; gənclərlə iş.

Hər bir dövlətdə olduğu kimi, gənclər Azərbaycanda da aparıcı qüvvədir. Bundan əlavə gənclər daim axtarışda olan və yenilikçi bir kütlədir.

Azərbaycan gənclərinin yaxın keçmişinə nəzər yetirsək görərik ki, sovet dövründə gənc olmaq o qədər də önəm daşımırdı. Əlbətdə ki, bu önəmsizlik SSRİ-nin yürütdüyü siyasətin və dövlət quruluşunun bəzi streotiplərinə görə idi. Vətəndaşlar dövlət strukturlarında hansısa vəzifə tutmaq üçün ya da ki, işləmək üçün bəlli bir yaş həddində olmalı idilər. Bütün bu proseslər o dönəmdə gəncləri bir qədər arxa plana atırdı [7].

Azərbaycan yenidən müstəqilliyini bərpa etdikdən sonra ümumilli lider Heydər Əliyev hakimiyyətə gəldikdə ölkəmizin gənclər siyasəti istiqamətində bir sıra əsaslı islahatlar aparmışdır [1, s. 18].

Azərbaycan gəncləri daim dövlətin diqqət mərkəzində olmuşlar. 26 iyun 1994-cü il tarixində Azərbaycanda gənclər siyasətini tənzimləyən normativ hüquqi baza və onun həyata keçirilməsi üçün məsluliyyət daşıyan mərkəzi icra hakimiyyəti orqanı yəni Gənclər və İdman Naziliyi yaradılmışdır. Gənclərin mövcud problemlərinin həlli istiqamətində müxtəlif dövlət qurumlarının fəaliyyətinin bu sahəyə yönləndirilməsinə və beynəlxalq təşkilatlarla əməkdaşlığa başlanmışdır. Gənclərin təhsili, sağlamlığı, sosial müdafiəsi, məşğulluğu və başqa sahələrdə dövlət tərəfindən irimiqyaslı tədbirlər həyata keçirilmişdir [1, s. 66].

Gənclərə göstərilən diqqətin bariz nümunəsi olaraq 2 Fevral Azərbaycan Gənclər Günü elan edildikdən sonra, müxtəlif gənclər təşkilatlarının və ayrı-ayrı gənclərin böyük əhəmiyyət daşıyan təşəbbüslərini dəstəkləmək üçün Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondu yaradılmışdır [5].

***Dünyamalıyev Fərid Hüseyn oğlu** – Azərbaycan Universitetinin II kurs magistr tələbəsi (Azərbaycan). E-mail: farid.dunyamaliyev14@mail.ru

1996-cı ilin fevral ayında ilk dəfə Azərbaycan gənclərinin forumu keçirildi və bu forumdan sonra gənclərin inkişafına dəstək, dövlət siyasətində mühüm istiqamətlərdən birinə çevrilmişdir [1, s. 112].

1997-ci ildə ulu öndərin imzaladığı fərmanla fevral ayının 2-si ölkədə Gənclər Günü kimi təsbit olundu.

Ümumiyyətlə, ulu öndər Heydər Əliyevin həyata keçirdiyi gənclər siyasəti 5 əsas istiqaməti ehtiva edirdi: [1, s. 73]

1. Milli mənəvi dəyərlərimizin, mədəni irsimizin qorunmasında gənclərin rolunu daha da artırmaq, gənclərin vətənpərvərlik ruhunda tərbiyələndirilməsini təmin etmək;
2. Gənclərin intellektual, elmi potensialının artırılması və inkişafı üçün ölkəmizdə ciddi mədəni və təhsil islahatları həyata keçirmək;
3. Gənc nəslin təşkilatlanmasını təmin etməklə, onları ölkəmizin, dövlətimizin və xalqımızın müstəqilliyi keşiyində yumruq kimi birləşməyə səfərbər etmək;
4. Gənclərin dövlətin idarə olunmasında rolunu əhəmiyyətli dərəcədə artırmaq və onlarda məsuliyyət hissini formalaşdırmaq;
5. Azərbaycan Respublikasının beynəlxalq aləmə inteqrasiyasının yaratdığı fürsətlərdən gənclərin maksimum dərəcədə yararlanmasına geniş imkanlar yaratmaq [1, s. 78].

Son zamanlar Azərbaycanda gənclər siyasəti daha da inkişaf etmiş və dövlət siyasətinin ən önəmli, əsas istiqamətinə çevrilmişdir. Ümumilli lider Heydər Əliyevin uğurlu davamçısı və siyasi məktəbinin yetirməsi olan Azərbaycan respublikasının Prezidenti İlham Əliyev bütün bunları nəzərə alaraq Azərbaycanın qüdrətli dövlətə çevrilməsi naminə gənclərə olan inamı sonsuzdur, ölkəmizdə gənclərə yüksək səviyyədə şərait yaradılması və onların inkişafı naminə bir çox dövlət proqramları qəbul edilir [5].

İlham Əliyev gənclərin dövlət idarəçiliyi sistemində iştirakının gerçəkləşdirilməsi, onların potensialından dövlətin mənafeyi naminə düzgün və tam istifadə olunması məqsədilə 2005-ci il avqustun 30-da “Azərbaycan Gəncliyi Dövlət Proqramı”nı (2005-2009-cu illər) təsdiq etdi. Bu proqram da öz növbəsində gənclərə dövlət qayğısının artırılmasını təmin edirdi. “Azərbaycan Gəncliyi Dövlət Proqramı” gənclərə özünü idarəçi kimi yetişdirməyə və potensiallarından düzgün istiqamətdə istifadə etməyə imkan yaradırdı [5].

2007-2015-ci illəri əhatə edəcək olan, gənclərin təhsil sahəsində inkişafını nəzərdə tuatan “Azərbaycan Gənclərinin Təhsili üzrə Dövlət Proqramı” adlı daha bir, təhsil proqramı qəbul olundu.

Azərbaycanın gələcək inkişafı üçün təhsil sisteminin müasir tələblərlə uzlaşan kadr bazasının gücləndirilməsi, müasir idarəetmə və istehsal texnologiyaları ilə fəaliyyət göstərən sahələrdə ixtisaslı kadr ehtiyacının ödənilməsi, neft sektorundan başqa sahələrin inkişafının gələcəkdə daha da sürətləndirilməsinin təmin edilməsi ölkəmizin vətəndaşlarının dünyanın bir sıra qabaqcıl ali təhsil müəssisələrində təhsil almaları prosesinin daha səmərəli aparılmasının təmin edilməsi ilə bağlı xüsusi proqramın həyata keçirilməsi vacibliyini meydana çıxartmışdır.

“Azərbaycan Gənclərinin Təhsili üzrə Dövlət Proqramı”-nın əsas məqsədi ölkədə rəqabət qabiliyyəti olan iqtisadi sistemin qurulması və davamlı inkişafın təmin edilməsi üçün ölkənin müasir tələblərə uyğun gələn kadrlara olan ehtiyacının ödənilməsi, Azərbaycan gənclərinin ümumdünya prinsiplər əsasında layiqli ali təhsil almaları üçün vacib olan şəraitin yaradılması, istedadlı gənclərin dünyanın qabaqcıl ölkələrində ali təhsil almaq imkanlarının genişləndirilməsi prosesinin mütəşəkkilliyi və səmərəliliyinin artırılması üçün vacib olan hər şeyi təmin etməkdən ibarətdir.

2011-ci ilin statistikasına əsasən, dövlət xətti ilə xarici ölkələrin ali təhsil müəssisələrində 1000-dən çox azərbaycanlı tələbə təhsil alır. Onlardan 700 nəfəri Türkiyə Respublikasında, 180 tələbə Rusiyada, 50-yə yaxın tələbə Misirdə, 20-yə yaxın tələbə Çin Xalq Respublikasında, qalan tələbələr isə hər ölkədə bir neçə nəfər olmaqla Slovakiya, Çexiya, Malayziya vəRumıniyada təhsil alırlar. Dövlət xətti ilə təhsil alan tələbələrin yarıdan çoxu doktrantura, aspirantura, magistratura, kliniki ordinatura və digər diplomdansonrakı proqramlar üzrə təhsil alırlar. Azərbaycanın istedadlı gəncləri həmçinin ölkəmizdə fəaliyyət göstərən fərqli-fərqli təhsil mübadilə proqramları daxilində ABŞ, Böyük Britaniya, Almaniya, Fransa və digər ölkələrdə də təhsil alırlar. Xaricdə təhsil alan Azərbaycan vətəndaşlarının əsas hissəsini öz vəsaitləri hesabına təhsil alan tələbələr təşkil edir. Hazırda istər, dövlət xətti ilə, istərsə də öz vəsaiti hesabına müxtəlif proqramlar üzrə xaricdətəhsil alan yüzlərlə tələbələr, təhsillərini bitirib Azərbaycana qayıtmış, müxtəlif sahələrdə işləyərək ölkəmizin iqtisadi, mədəni və elmi potensialının daha çox gücləndirilməsinə öz layiqli töhfələrini vermişlər və verməkdədirlər [4, 5].

Dövlət proqramına əsasən maliyyələşdirmə zamanı tələbələrin bütün xərcləri qəbul edən ölkədə onların qeydiyyata alınması,viza məsələləri, təhsil haqqı, yaşayış üçün xərclər, tədris ədəbiyyatı ilə təminat, yemək, tibbi sığorta, gediş-gəliş biletlərinin alınması təmin olunur.

Dövlət Proqramının icra edilməsi sayəsində aşağıdakı nəticələrin əldə olunması nəzərdə tutulmuşur:

- Azərbaycan gənclərinin xarici ölkələrin nüfuzlu ali məktəblərində təhsil prosesinin normativ hüquqi bazasının yaradılmasından sonra xaricdəki ali təhsil ocaqlarına tələbə göndərilməsi işi təkmilləşəcəkdir;
- xaricdə təhsil almaq üçün göndərilən gənclərin seçilməsi mexanizmi inkişaf edəcəkdir;
- Azərbaycanda iqtisadi inkişaf və əmək bazarının tələblərinə uyğun olan ixtisaslar müəyyən ediləcəkdir;
- bu müddətdə ölkənin əmək bazarının tələblərinə uyğun gələn yüksək ixtisaslı kadrlarla təmin olunması probleminin həlli istiqamətində ciddi müsbət dəyişikliklər əldə olunacaqdır;
- ölkənin elmi və elmi-pedaqoji potensialı güclənəcək, intellektual gənclərin xaricə çıxmaq imkanları daha da artacaqdır;
- Azərbaycanda beynəlxalq standartlara uyğun mütəxəssislərin hazırlanması üçün bir çox pedaqoji kadrlar yetişəcəkdir;
- ölkədən xaricdə təhsil alan tələbələrin məlumat-informasiya bazası yaradılacaqdır;
- Azərbaycan Respublikasında insan kapitalı daha yüksək səviyyədə inkişaf etdiriləcək ki, bu da öz növbəsində ölkənin rəqabət qabiliyyətinin yüksəlməsinə və davamlı inkişafının təmin olunmasına əsas yaradacaqdır.

Azərbaycanda uğurlu gənclər siyasətinin davamı olaraq 26 yanvar 2015-ci ildə cənab Prezident İlham Əliyevin sərəncamına əsasən "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası" qəbul edilmişdir [6].

Son 10 il ərzində Azərbaycan bir çox sahələrdə nəzərəçarpacaq uğurlar qazanmış, insan potensialının inkişafına əsasən "orta insan inkişafı ölkələri" kateqoriyasından "yüksək insan inkişafı ölkələri" kateqoriyasına daxil olmuşdur. Bu, gənclər üçün mövcud iqtisadi imkanların yeni səviyyədə yaradılması, hüquqların daha da genişləndirilməsi və maddi təminatın artırılması deməkdir. Ötən dövrdə sosial müdafiə sistemi təkmilləşdirilmiş, məşğulluq siyasətinə əsaslanan əmək bazarı formalaşdırılmış, yoxsulluğa qarşı mübarizədə uğurlu addımlar atılmışır. Bunlarla

yanaşı, gənclərlə iş və idman siyasətinin çevikliyinin artırılması, mədəni irsin qorunması, demoqrafiya və miqrasiya məsələlərinin tənzimlənməsi kimi vacib tədbirlərgənclər üçün yüksək sosial rifah və insan kapitalının inkişafına zəmin yaratmışdır [4].

Gəncliyin inkişafı dövlətin sosial siyasətinin vacib istiqamətlərindəndir. Gənclər siyasəti gənclərin inkişafı üçün həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlər kompleksidir. Dünyada baş verən qlobal dəyişikliklər, həmçinin ölkənin yeni inkişaf imkanları Azərbaycanda gənclər siyasətinin yeni strategiyasının hazırlanmasını zəruri edir [6].

Azərbaycanın demoqrafik inkişafında gənclər mühüm rol oynayırlar. Ölkə əhalisinin 28,9 faizinivə ya 2,7 milyon nəfəri yaşı 14-dən 29-dək olan şəxslərdən ibarətdir. onların 52%-i şəhər yerlərində, 48%-i isə kənd yerlərində yaşayır. Onların 49,2%-ni qadınlar təşkil edir. Bağlanılan nikahların böyük hissəsi gənclərin payına düşür. Yeni doğulan uşaqların 82,6%-i gənc ailələrdə dünyaya gəlir [6, 7].

Gənclərin təhsil səviyyəsi hər il daha da yüksəlir. 2013/2014-cü tədris ilinin əvvəlinə olan məlumatlara əsasən, Azərbaycan Respublikasında 63 min tələbənin təhsil aldığı 57 dövlət və 1 özəl orta ixtisas təhsil müəssisəsi, tələbələrinin sayı 151 min nəfər olan 37 dövlət və 15 özəl ali təhsil müəssisəsi fəaliyyət göstərir. Xaricdə təhsil alan Azərbaycan gənclərinin sayı durmadan artmaqdadır. Son 7 il ərzində 3000-dən çox gənc “2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı” çərçivəsində dünyanın qabaqcıl ali məktəblərinə təhsil almaq üçün göndərilmişdir [2, s. 32].

2013-cü il tarixində “Əhalinin iqtisadi fəallığına dair” keçirilən yoxlamaların yekunlarına əsasən, 15-29 yaşlı gənclərin 1239,8 min nəfəri iqtisadi fəal olmuşdur. Gənclərin 1116,8 min nəfəri iqtisadi əmək fəaliyyəti ilə məşğul olmuşlar. Yoxlamaların yekunlarına görə, 15-29 yaşlı gənclər arasında işsizolanların sayı 123 min nəfər olmuşdur [2].

Gənclərin asudə vaxtını səmərəli təşkil etmək, onların inkişafını, məlumatlandırma, yönəltmə və sosial dəstəklə təmin etmək üçün Azərbaycanın şəhər və rayonlarında 30-dək sosial xidmət müəssisəsi-gənclər evləri istifadəyə verilmişdir. Bu iş hazırda da davam etdirilir.

Gənclərin təşkilatlanması üçün zəruri olan bütün imkanlar yaradılmışdır. Hazırda Bakıda və bölgələrdə 250-dən çox gənclər təşkilatı fəaliyyət göstərir. Azərbaycan yeni müstəqillik əldə etdiyi zamanda gənclərin əsasən beynəlxalq təşkilatlar tərəfindən dəstəklənən təşəbbüsləri, son zamanlarda dövlət büdcəsi hesabına maliyyələşən fondlar və digər təsisatların vəsaiti vasitəsilə dəstəklənməyə başlamışdır. Gənclərin qeyri-hökumət təşkilatlarına yönləndirilmiş maliyyə vəsaitinin həcmi ilbəil artaraq gənclər arasında liderlik bacarıqlarının artırılmasını, könüllülüyün dəstəklənməsini həm də məşğulluğunu təmin etmişdir [3].

Azərbaycan gəncliyi əsasən aşağıdakı sosial qruplardan ibarətdir:

- tam orta məktəblərin yuxarı siniflərinin vəpeşə-ixtisas təhsili müəssisələrinin şagirdləri;
- orta ixtisas və ali təhsil müəssisələrində təhsil alan tələbələr;
- gənc alimlər;
- xaricdə təhsil alan tələbələr və işləyən gənclər;
- hərbi xidmətdə olan gənclər;
- gənc fermerlər və gənc sahibkarlar;
- xidmət və istehsal sahələrində çalışan gənclər;
- dövlət qulluqçuları və seçkili orqanlarda təmsil olunan gənclər;
- yaradıcı və istedadlı gənclər;

- gənc idmançılar;
- siyasi partiyalarda və qeyri-hökumət təşkilatlarının üzvü olan gənclər;
- işsiz gənclər;
- ailəli gənclər;
- aztəminatlı ailələrdən olan gənclər;
- qaçqın və məcburi köçkün gənclər;
- sağlamlıq imkanları məhdud vəəlilliyi olan gənclər;
- narkomaniyaya, və ya QİÇS-ə düçar olmuş, insan alverinin qurbanı olmuş gənclər və s.

“2015-2025-ci illərdə Azərbaycan gənclərin İnkişaf Strategiyası” –nın məqsədi 2015-2025-ci illərdə ölkəmizdə gənc nəslin potensialını müasir dövrün tələblərinə uyğun inkişaf etdirmək, yeni nəsildə fəal vətəndaşlıq mövqeyi formalaşdırmaq, həmin potensialdan Azərbaycan Respublikasının mənafeləri naminə istifadə etməkdir [3].

Son zamanlar dövlətin gənclər siyasətində könüllülük fəaliyyəti də əsas yer tutur. Nəzər yetirsək artıq dövlət və qeyri-dövlət sektorlarının çox hissəsində könüllü fəaliyyətini görə bilərik. Azərbaycanda könüllülər bir çox beynəlxalq tədbirlərin təşkil olunmasında və keçirilməsində fəal iştirak ediblər və edirlər. ASAN xidmət, DOST mərkəzi, Kənd Təsərrüfatı Nazirliyi, Təhsil nazirliyi, Müxtəlif banklar, Dövlət Neft Şirkəti və.s qurumlar könüllülük fəaliyyətindən çox geniş istifadə etməkdədirlər [6].

Hazırda ölkəmizdə yüz mindən artıq könüllü şəxs fəaliyyət göstərir. Könüllülərin əksər hissəsini tələbələr təşkil edir. Mütəmadi olaraq ölkəmizdə könüllülər üçün seminarlar, onların inkişafını nəzərdə tutan müxtəlif tipli tədbirlər, təlimlər və konfranslar təşkil olunur. Azərbaycan gəncləri könüllülük fəaliyyəti sayəsində arzuladıqları sahədə özlərini sınaya, həmin sahəni dərindən mənimsəyə bilirlər.

İlham Əliyev 2020-ci ili könüllülər ili elan etdi. Bu özü bir mesaj idi ki, bu il gənclərin ili olacaq.

2019-cu ildə cənab Prezident İlham Əliyevin sərəncamı ilə gənclərin idarəçilik patensialının yüksəldilməsi, istedadlı kadrların seçilməsi və inkişaf etdirilməsi üçün Yüksəliş müsabiqəsi təşkil olunmuşur.[9]Bu müsabiqə gənclər üçün bir çox mükafatlar nəzərdə tutub. Müsabiqənin qalibləri ölkənin idarəçilik siyasətində də yaxından iştirak edəcəkdir və ilk iyirmi qalib üçün 20000 AZN mükafat nəzərdə tutulmuşdur.

Bütün bu tədbirlər gənclərin inkişafını təmin edir. Azərbaycanda gənclər siyasətinin ən önəmli bir hissəsi də gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunmasıdır. Həmişə olduğu kimi, bu gün də ən aktual məsələlərdən biri də gənclərin vətənpərvərlik tərbiyəsi, onlara xalqa, vətənə məhəbbət hisslərinin aşılanmasıdır. Azərbaycan xalqının ümummilli Lideri Heydər Əliyev gənclərin daim vətənpərvərlik ruhunda tərbiyə olunmasını gənclərin tərbiyəsinə məsuliyyət daşıyan bütün qurumların, xüsusilə də təhsil sahəsində fəaliyyət göstərən işçilərin qarşısında ən mühüm vəzifə kimi qoyur, müxtəlif tədbirlərdə, ziyalılarla, müəllimlərlə, gənclərlə çoxsaylı görüşlərində bu məsələyə dönə-dönə toxunaraq öz məsləhətini, tövsiyəsini və tapşırıqlarını verirdi. Ulu öndər hələ 1994-cü ildə təhsil işçiləri ilə görüşündəki nitqində gənclərin vətənpərvərlik tərbiyəsinin zəruriliyini ifadə edərək demişdir: "Müstəqil dövlətdə yaşayan hər bir vətəndaş birinci növbədə bu dövlətin müstəqilliyinin, suverenliyinin təmin olunmasını öz həyatının əsas vəzifəsi və məqsədi bilməlidir. Ona görə də bizim gənclər, təhsil alan gənclər gərək məktəblərdə ilk addımlarından vətənpərvərlik əhvali-ruhiyyəsi ilə tərbiyə olunsun. Bütün dərslər, xüsusən humanitar fənlər gərək gənclərimizə

Vətənə sədaqət, vətənpərvərlik ruhu aşılasın, tərbiyə etsin və bunlar hər bir gəncin qəlbində sarsılmaz bir qalaya çevrilsin". Ümumilli liderin dəyərli tapşırıq və tövsiyələrini əldə rəhbər tutan təhsil işçiləri, təhsil müəssisələri, eləcə də əsas fəaliyyəti gənclərlə iş olan digər qurumlar və təşkilatlar vətənpərvərlik hissinin gənclərə aşılanmasına böyük diqqət yetirirlər [1, s. 220].

Vətənpərvərlik tərbiyəsi əsasən vətəni, xalqını, dövlətini sevməkdən qaynaqlanır. Vətənpərvər olmaq üçün vətəni yaxşı tanımaq, yeraltı və yerüstü sərvətlərinə, maddi-mədəniyyət abidələrinə, adət və ənənələrimizə dərindən bələd olmaq, bilmək lazımdır [6].

Son illər belə tərbiyə işlərinin əsas mərkəzləri olan tarix-diyarşünaslıq muzeylərinin sayı artıb. 2014-cü ildən başlayaraq gənclərin vətənimizin hər şeyini daha dərindən tanınmasına və mənimsəməsinə imkan verən yeni layihəyə start verilib. Cənab Prezidentin göstərişi ilə "Ölkəmizi tanıyaq" adlı maarifləndirici tur-aksiyaların keçirilməsinə başlanıb. Layihə çərçivəsində yayda, eləcə də tədris ilindəki tətillər olan dövründə şagirdlərin müxtəlif bölgələrə səfərləri təşkil olunur [5]. Bu səfərlərdə məktəblilər olduqları rayon və şəhərin görməli yerləri və maddi-mədəniyyət abidələri ilə tanış olur, görüşlər keçirirlər. Layihənin icrasına başlandığı ilin avqustundan bu günə kimi, müxtəlif rayon və şəhərlərin təhsil müəssisələrinin minlərlə şagirdi, xüsusilə də gənclər bu tur-aksiyaların iştirakçısı olmuşdur. Əldə olunmuş təcrübənin təhlili göstərir ki, bu turlar da digər gənclərlə iş formaları kimi aparılan vətənpərvərlik tərbiyəsi işinin ən təsirli vasitələrindəndir [4].

## Biblioqrafiya


1. Axundova E. Heydər Əliyev-Şəxsiyyət və Zaman. Qayıdış. Bakı: Ozan , 2007, 352 s.
2. Azərbaycan 2003-2013. Əsrə bərabər illər. İnsan amili, gənclər siyasəti və idman. Bakı: Şərq-Qərb, 2013, 203 s.
3. Azərbaycan 2020: “İnkişafın yeni hədəfləri”. [Elektron mənbə]. URL:http://www.e-qanun.az/framework/25029 (müraciət tarixi: 21.10.2020).
4. Gənclər siyasəti dövlətin əsas istiqamətlərindəndir. [Elektron mənbə]. URL: https://edu.gov.az/upload/file/xaricde-tehsil-dovlet proqrami.pdf (müraciət tarixi: 21.10.2020).
5. 2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı. [Elektron mənbə]. URL: https://mod.gov.az/az/pre/21478.html (müraciət tarixi: 22.10.2020).
6. “2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı [Elektron mənbə] URL: https://president.az/articles/14132 (müraciət tarixi: 25.10.2020).


**Dunyamaliev F.G.**♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2021.63.38-45**
**UDC 34.08**

## Youth policy and youth work in Azerbaijan

**Abstract**: As in any country, young people are a leading force in Azerbaijan. In addition, young people are always in search and an innovative crowd. After Azerbaijan regained its inde

♦**Dunyamaliev Farid Gusein oghlu** – II year master student of the Azerbaijan University (Azerbaijan). E-mail: farid.dunyamaliyev14@mail.ru

pendence, when National Leader Heydar Aliyev came to power, he carried out a number of fundamental reforms in the direction of our country's youth policy.

Recently, youth policy in Azerbaijan has further developed and has become the most important direction of state policy. Taking into account all this, the President of the Republic of Azerbaijan Ilham Aliyev, a successful successor of national leader Heydar Aliyev and a pupil of the political school, has endless confidence in the youth for the transformation of Azerbaijan into a powerful state.

All these measures ensure the development of young people. The most important part of youth policy in Azerbaijan is the education of young people in the spirit of patriotism.

**Keywords**: youth; youth policy; Azerbaijan; state program; patriotism; youth development; volunteerism; politics; work with youth.

## References

1. Akhundova E. *Geydar Aliyev-Shekhsiyyet ve Zaman. Qayidish*. [Heydar Aliyev-Personality and time. Return]. Baku, Ozan Publ., 2007, 352 p.
2. *Azerbaycan 2003-2013. Esre beraber iller. İnsan amili, gənclər siyaseti və idman. Azerbaijan 2003-2013.* [Years equal to the century. Human factor, youth policy and sport]. Bakı: Sherq-QerbPubl., 2013, 203 p.
3. *Azerbaycan 2020:"İnkişafin yeni hedefleri".* ["New development goals"]. Available at: http://www.e-qanun.az/framework/25029 (accessed 21.10.2020)
4. *Gencler siyaseti dövletin esas istiqametlerindendir*. [Youth policy is one of the main directions of the state.] Available at: https://edu.gov.az/upload/file/xaricde-tehsil-dovlet proqrami.pdf (accessed 21.10.2020)
5. *2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı.* [State Program on education of Azerbaijani youth abroad in 2007-2015.] Available at: https://mod.gov.az/az/pre/21478.html (accessed 22.10.2020)
6. *"2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı* [Order of the President of the Republic of Azerbaijan on approval of the "Azerbaijan Youth Development Strategy for 2015-2025"]. Available at: https://president.az/articles/14132 (accessed 25.10.2020)

**Дуньямалиев Ф.Х.**[♦]

**DOI: 10.25108/2304-1730-1749.iolr.2021.63.38-45**
**УДК 34.08**

## Молодежная политика и молодежная работа в Азербайджане

**Аннотация**: Как и в любой другой стране, в Азербайджане молодежь является ведущей силой. Кроме того, молодые люди всегда в поиске и новаторской массе. После восстановления независимости Азербайджана, когда к власти пришел общенациональный лидер Гейдар

[♦]**Дуньямалиев Фарид Хусейн оглы** - студент 2 курса магистратуры Университета Азербайджан (Азербайджан). E-mail: farid.dunyamaliyev14@mail.ru

Алиев, он провел ряд фундаментальных реформ в направлении молодежной политики нашей страны.

В последнее время молодежная политика в Азербайджане получила дальнейшее развитие и стала важнейшим, главным направлением государственной политики. Принимая во внимание все это, Президент Азербайджанской Республики Ильхам Алиев, успешный преемник общенационального лидера Гейдара Алиева и ученик политической школы, безгранично верит в молодежь для превращения Азербайджана в могущественное государство.

Все эти меры обеспечивают развитие молодежи. Важнейшая часть молодежной политики в Азербайджане - воспитание молодежи в духе патриотизма.

**Ключевые слова**: молодежь; молодежная политика; Азербайджан; государственная программа; патриотизм; развитие молодежи; волонтерство; политика; работа с молодежью.

**Библиография**

1. Ахундова Эльмира. Гейдар Алиев-Личность и время. Возвращение. - Баку: Озан, 2013. - 352 с. (на азерб. яз.).

2. Азербайджан 2003-2013. Годы, равные веку. Человеческий фактор, молодежная политика и спорт. - Баку: Шерг-Герб, 2013. - 203 с. (на азерб. яз.).

3. Азербайджан 2020 – «новые цели развития». [Электронный ресурс]. Режим доступа: http://www.e-qanun.az/framework/25029 (на азерб.яз.) (дата обращения: 21.10.2020).

4. Молодежная политика - одно из основных направлений государства. [Электронный ресурс]. Режим доступа: https://mod.gov.az/az/pre/21478.html (на азерб.яз.) (дата обращения: 21.10.2020).

5. Государственная программа обучения азербайджанской молодежи за рубежом на 2007-2015 годы. [Электронный ресурс]. Режим доступа: https://edu.gov.az/upload/file/xaricde-tehsil-dovlet-proqrami.pdf (на азерб.яз.) (дата обращения: 22.10.2020).

6. Распоряжение Президента Азербайджанской Республики об утверждении «Стратегии развития молодежи Азербайджана на 2015-2025 годы». [Электронный ресурс]. Режим доступа: https://president.az/articles/14132 (на азерб.яз.) (дата обращения: 25.10.2020).